# “Ramanalılar İkinci Dünya müharibəsi illərində”








**2023-cü ilin sonunda işıq üzü görmüş kitab məhz belə adlanır. Ramana İdman Mərkəzində keçirilən təqdimat mərasimində müharibə iştirakçılarının ailə üzvləri, ictimaiyyət nümayəndələri, elm və təhsil, mədəniyyət işçiləri, kənd sakinləri, Bakının Mərdəkan, Hövsan, Zığ, Zabrat, Maştağa, Bülbülə, Əmircan, Suraxanı, Buzovna, Digah kəndlərindən gəlmiş qonaqlar da iştirak edirdi.**

Əvvəlcə İkinci Dünya savaşında həlak olanların, Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Aparıcı Ədilə Babayeva ümummilli lider Heydər Əliyevin İkinci Dünya müharibəsi iştirakçılarını daim diqqət mərkəzində saxladığını, faşizm üzərində qazanılmış qələbədə Azərbaycan xalqının, Bakı neftinin böyük rolu olduğunu dedi.

Kitabın müəllifi Xırdaxanım Hüseynova bildirdi ki, bu kitabı 1941-ci ildə 18 yaşı tamam olmuş, 1942-ci ilin iyul ayında itkin düşməsi haqqında ailəsinə arayış gəlmiş əmisi Hüseynağa Hüseynəli oğlunun xatirəsinə ithaf edib. Daha sonra müəllif kitabın necə ərsəyə gəlməsi haqqında danışıb, kənd ağsaqqallarından, ağbirçəklərindən aldığı məlumatlardan istifadə etdiyini diqqətə çatdırıb. "Pamyat naroda", "Doroqa pamyati", "Kniqa pamyati blokadnova Leninqrada" saytlarının məlumatlarına istinad etdiyini bildirib. Qeyd edib ki, Ramana kəndindən müharibədə 200 nəfərdən çox insan iştirak edib, onlardan 60 nəfəri həlak olub və ya itkin düşüb.

Əməkdar mühəndis, SSRİ-nin fəxri neftçisi, "Lenin" mükafatı laureatı Mirkazım Məmmədovun oğlu Ramiq Məmmədov atası, yazıçı Süleyman Vəliyevin nəvəsi Toğrul Vəliyev babası haqqında xatirələrini danışıb. Ramana kənd ağsaqqalı İsmixan Cəlilov çıxış edərək əmisi Nurməmməd Cəlilov haqqında xatirələrini söyləyib. Tənqidçi, nasir, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru Rəhim Əliyev müharibə iştirakçısı olmuş atası və iki əmisi haqqında məlumat verib.

Kimyaçı, alman dilinin mükəmməl bilicisi, uzun müddət Sabunçu rayonunun bir çox məktəblərində direktor işləmiş Şirəli Şirəliyevin övladları Nazilə Nəsirova və tanınmış pedaqoq Balababa Şirəliyev ataları barədə xatirələrini tədbir iştirakçıları ilə bölüşüblər. Basketbol üzrə Azərbaycan Respublikasının Əməkdar məşqçisi Elxan Ağayev əmisi Məmmədyar Ağayev haqqında xatirələrini söyləyib. Qeyd edək ki, Məmmədyar Ağayev 1954-cü ildən "Sosialist Sumqayıtı" qəzetinin təsisçisi olub. Fuad Şərifov əmisi Cümşüd Şərifov, İkinci Dünya müharibəsi iştirakçısı olmuş Əli Bakıxanovun qızı Arifə Bakıxanova atası ilə bağlı xatirələrini bölüşüb.

İstedadlı aktrisa və pedaqoq, Prezident mükafatına layiq görülmüş Zemfira Əbdülsəmədova Əhməd Cəlilin "Can nənə, bir nağıl de" şeirini oxuyub.

**"Respublika".**

Respublika.- 2024.- 16 may, № 101.- S.11.